**Saxta süd məhsullarının sosial media səhifəsində satışa çıxarılmasına dair məlumat**

**(5 may 2025)**

Sosial media platformasında satışı həyata keçirilən qaymağın keyfiyyətinin aşağı olması ilə bağlı Qida Təhlükəsizliyi Agentliyinə daxil olan müraciət əsasında Abşeron rayonu, Masazır qəsəbəsi, Ə.Vahid küçəsi, "Salty Park" yaşayış kompleksi, giriş 1, ev 295 ünvanında yoxlama keçirilib.

Baxış zamanı fiziki şəxs Nəzərova Könül Sabir qızının istehsalçı müəssisələrdən tərkibində quru süd və süd yağı əvəzedicisi olan müxtəlif növ süd məhsullarını (qaymaq, pendir və s.) alıb etiketini çıxararaq, "təbii süd məhsulu" adı altında, müşayiətedici sənədləri olmadan "TikTok" və "İnstagram" sosial media səhifələrində satışını həyata keçirdiyi aşkarlanıb.

Eyni zamanda süd məhsullarının temperatur rejimi gözlənilmədən, soyuducu avadanlıqla təmin edilməyən minik avtomobili vasitəsilə müştərilərə çatdırıldığı müəyyən edilib.

Faktla bağlı qanunvericiliyə uyğun zəruri tədbirlər görülüb, qanunsuz fəaliyyətin qarşısı alınıb.